

**PowerPoint® Lecture Presentation**

**to accompany**

# Principles of Economics, Third Edition

**N. Gregory Mankiw**

**Prepared by Mark P. Karscig, Central Missouri State University.**

**703.0 Nihad Aliyev ☺**

SOUTH-WESTERN
THOMSON LEARNING

Australia • Canada • Mexico • Singapore • Spain • United Kingdom • United States

# 1
# GİRİŞ






1

# Ekonomiksin On Prinsipi

Copyright © 2004 South-Western/Thomson Learning

# Ekonomiks. . .

. . . Ekonomiks sözü Yunanca “ailə təsərrüfatını idarə edən” mənasında bir kəlmədən əmələ gəlib.

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

- Ailə təsərrüfatı və iqtisadiyyat çoxlu seçimlərlə üz-üzə gəlir:
  - Kim işləyəcək?
  - Hansı əmtəələr istehsal edilməlidir? İstehsalın kəmiyyəti nə qədər olmalıdır?
  - İstehsal zamanı hansı resurslardan istifadə edilə bilər?
  - Əmtəələr hansı qiymətə satılmalıdır?

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

## Cəmiyyət və Qıt Sərvətlər (resurslar):

- Cəmiyyətin sərvətlərinin idarə edilməsi vacibdir çünki, sərvətlər məhduddur.
- *Qıtlıq*. . . o deməkdir ki, cəmiyyətin sərvətləri məhduddur və buna görə də insanların malik olmaq istədiyi bütün əmtəə və xidmətləri istehsal edə bilməz.

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

*Ekonomiks* cəmiyyətin öz qıt sərvətlərini necə idarə etdiyini öyrənən elm sahəsidir.

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

- İnsanlar qərarları necə qəbul edir.
  - İnsanlar seçimlərlə üzləşir.
  - Bir şeyin dəyəri onu əldə etmək üçün imtina olunanlarla ölçülür.
  - Rasional insanlar marjinal faydanı düşünürlər.
  - İnsanlar stimullara cavab verirlər.

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

- İnsanlar arasındakı münasibətlər.
  - Ticarət hər kəs üçün faydalı ola bilər.
  - Adətən bazarlar iqtisadi fəaliyyətin təşkili üçün yaxşı üsuldur.
  - Bəzən dövlətlər bazar fəaliyyətinin nəticələrini yaxşılaşdıra bilər.

Copyright © 2004 South-Western/Thomson Learning

# EKONOMİKSİN ON PRİNSİPİ

- Bütövlükdə iqtisadiyyat necə işləyir.
  - Ölkədəki həyat səviyyəsi həmin ölkənin istehsalından asılıdır.
  - Dövlət həddən artıq pul çap etdikdə qiymətlər qalxır.
  - Cəmiyyət inflyasiya ilə işsizlik arasında qısa müddətli seçimlə üzləşir.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #1: İnsanlar Seçimlərlə Üzləşir.

"Pulsuz nahar olmaz!"



Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #1: İnsanlar Seçimlərlə Üzləşir.

Adətən, xoşumuza gələn hər hansı bir şeyi əldə etmək üçün, xoşladığımız digər bir şeyi verməyə məcbur oluruq.

- Silah yaxud qida
- Qida yaxud geyim
- Asudə vaxt yaxud iş
- Səmərəlilik yaxud ədalətlilik

**Qərarları qəbul etmək iki məqsəddən birini seçmək tələb edir.**

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #1: İnsanlar Seçimlərlə Üzləşir.

- Səmərəlilik yaxud Ədalətlilik
  - *Səmərəlilik* cəmiyyətin malik olduğu qıt sərvətlərdən maksimum dərəcədə faydalanmaq xüsusiyyəti deməkdir.
  - *Ədalətlilik* iqtisadi rifahın cəmiyyət üzvləri arasında adil surətdə bölüşdürülməsi xüsusiyyəti deməkdir.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #2: Bir Şeyin Dəyəri Onu Əldə Etmək Üçün İmtina Olunanlarla Ölçülür.

- Qərarların qəbul edilməsi alternativlərin gətirə biləcəyi fayda və məsrəflərin müqayisəsini tələb edir.
  - Universitetə getmək yoxsa işləmək?
  - Dərslərə hazırlaşmaq yoxsa görüşə getmək?
  - Dərsə getmək yoxsa yatmaq?
- Bir əşyanın *alternativ dəyəri* onu əldə etmək üçün imtina olunanlarla ölçülür.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #2: Bir Şeyin Dəyəri Onu Əldə Etmək Üçün İmtina Olunanlarla Ölçülür.




Basketbol ulduzu Kobe Brayant universitetə getməkdən imtina etmiş və orta məktəbdən birbaşa peşəkar idmana qatılmışdır ki, burada o milyonlarla dollar qazana bilmişdir.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #3: Rasional İnsanlar Marjinal Faydanı Düşünürlər.

- *Marjinal Dəyişmələr* fəaliyyət planında kiçik düzəlişlərdir.

İnsanlar marjinal fayda və məsrəfləri düşünməklə qərar qəbul edirlər.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #4: İnsanlar Stimullara Cavab Verirlər.

- Fayda və məsrəflərdə marjinal dəyişmələr insanları reaksiya verməyə məcbur edir.
- Bir alternativi o biri alternativdən üstün tutmaq qərarı o zaman baş verir ki, həmin alternativin marjinal faydası onun marjinal məsrəfindən artıq olur.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #5: Ticarət Hər Kəs Üçün Faydalı Ola Bilər.

- İnsanlar başqaları ilə ticarət etmək bacarığından faydalanır.
- Rəqabət ticarətdən fayda qazanmaqla nəticələnir.
- Ticarət insanlara onların ən yaxşı bacardığı fəaliyyət sahəsində ixtisaslaşmaq imkanı verir.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #6: Adətən Bazarlar İqtisadi Fəaliyyətin Təşkili Üçün Yaxşı Üsuldur.

- *Bazar iqtisadiyyatı* çoxlu müəssisə və ailə təsərrüfatlarının əmtəə və xidmət bazarlarında qarşılıqlı münasibətdə olarkən, verdikləri müstəqil qərarları vasitəsilə sərvətləri bölüşdürən iqtisadiyyatdır.
  - Ailələr hansı müəssisələrdə işləyəcəklərinə və öz gəlirləri hesabına nə alacaqlarına qərar verirlər.
  - Şirkətlər kimi işə götürəcəklərinə və nə istehsal edəcəklərinə qərar verirlər.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #6: Adətən Bazarlar İqtisadi Fəaliyyətin Təşkili Üçün Yaxşı Üsuldur.

- Adam Smit belə bir müşahidə aparmışdır ki, bazarlarda qarşılıqlı əlaqədə olan təsərrüfat və şirkətlər sanki "gözəgörünməz əl" tərəfindən arzu olunan nəticələrə doğru yönəldilirlər.
  - Çünki, nəyi alıb nəyi satmaq kimi qərarları qəbul edərkən ailə və müəssisələr qiymətə nəzər saldıqlarına görə, özləri də bilmədən öz hərəkətlərinin ictimai fayda və məsrəflərini nəzərə almış olurlar.
  - Nəticədə, qiymətlər həmin fərdi qərar verənlərin hərəkətlərini elə şəkildə yönləndirir ki, cəmiyyətin bütövlükdə rifahı maksimal dərəcədə artmış olsun.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #7: Bəzən Dövlətlər Bazar Fəaliyyətinin Nəticələrini Yaxşılaşdıra bilər.

- *Bazarın iflası* o zaman baş verir ki, kənar müdaxilə olmadığı halda sərvətlərin səmərəli bölünməsinə nail olunmur.
- Bazar iflasa uğradıqda dövlət səmərəlilik və ədalətlilik həyata keçirmək üçün müdaxilə edə bilər.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #7: Bəzən Dövlətlər Bazar Fəaliyyətinin Nəticələrini Yaxşılaşdıra bilər.

- Bazarın iflası aşağıdakı səbəblərə görə ola bilər:
  - *Yan təsir*- bir şəxsin və ya müəssisənin əməllərinin başqalarının maddi rifahına təsiri.
  - *Bazar gücü* – tək bir şəxsin və ya müəssisənin bazar qiymətlərinə hədsiz təsir edə bilməsi imkanıdır.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #8: Ölkədəki Həyat Səviyyəsi Həmin Ölkənin Əmtəə və Xidmətləri İstehsal Etmək Qabiliyyətindən Asılıdır.

- Həyat səviyyəsi müxtəlif yollarla ölçülə bilər:
  - Şəxsi gəlirləri müqayisə etməklə.
  - Milli istehsalın ümumi bazar dəyərini müqayisə etməklə.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #8: Ölkədəki Həyat Səviyyəsi Həmin Ölkənin Əmtəə və Xidmətləri İstehsal Etmək Qabiliyyətindən Asılıdır.

- Həyat səviyyəsindəki demək olar ki, bütün müxtəlifliklər ölkələrin məhsuldarlığı arasındakı fərqlərlə izah olunur.
- *Məhsuldarlıq* bir işçinin vaxtının hər saatında istehsal edilən əmtəə və xidmətlərin miqdarıdır.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #8: Ölkədəki Həyat Səviyyəsi Həmin Ölkənin Əmtəə və Xidmətləri İstehsal Etmək Qabiliyyətindən Asılıdır.

- Həyat səviyyəsi müxtəlif yollarla ölçülə bilər:
  - Şəxsi gəlirləri müqayisə etməklə.
  - Milli istehsalın ümumi bazar dəyərini müqayisə etməklə.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #9: Dövlət Həddən Artıq Pul Çap Etdikdə Qiymətlər Qalxır.

- İnflyasiya iqtisadiyyatda qiymətlərin ümumi səviyyəsindəki artımdır.
- İnflyasiyanın bir səbəbi pul kütləsinin artmasıdır.
- Dövlət öz milli pulunun miqdarını artırdıqca, pulun dəyəri düşür.

Copyright © 2004 South-Western/Thomson Learning

# Prinsip #10: Cəmiyyət İnflyasiya ilə İşsizlik arasında Qısa Müddətli Seçimlə Üzləşir.

- Filips Əyrisi qısa müddətdə inflyasiya ilə işsizlik arasındakı seçimi göstərən əyridir:

  ⇩İnflyasiya ⇨ ⇧İşsizlik

  Bu qısa müddətli seçimdir!

Copyright © 2004 South-Western/Thomson Learning

# Xülasə

- Fərdlər qərar qəbul edərkən alternativ məqsədlər arasında seçimlərlə üzləşir.
- Hər hansı bir şeyin dəyəri onu əldə etmək üçün imtina edilən imkanlarla ölçülür.
- Rasional insanlar marjinal məsrəflər və marjinal faydaları müqayisə etməklə qərar qəbul edirlər.
- İnsanlar stimullara öz davranışlarını dəyişməklə cavab verirlər.

Copyright © 2004 South-Western/Thomson Learning

# Xülasə

- Ticarət qarşılıqlı faydalı ola bilər.
- Adətən bazarlar insanlar arasında ticarət əlaqələrinin aparılması üçün yaxşı üsuldur.
- Dövlət bazar fəaliyyətinin nəticələrini yaxşılaşdıra bilər, əgər bazar iflasa uğrayıbsa və yaxud da ədalətsizlik mövcuddursa.

Copyright © 2004 South-Western/Thomson Learning

# Xülasə

- Məhsuldarlıq yaşayış səviyyəsinin əsas mənbəyidir.
- Pulun artımı inflyasiyanın əsas mənbəyidir.
- Cəmiyyət inflyasiya ilə işsizlik arasında qısa müddətli seçimlə üzləşir.

Copyright © 2004 South-Western/Thomson Learning